# Paşa Qəlbinur - 70



Hörmətli Paşa Qəlbinur!

Sizi - görkəmli şair və oftalmoloq alimi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 30 mart 1952-ci ildə Şəmkir rayonunun Çinarlı kəndində anadan olmusunuz. Hələ gənc yaşlarınızdan elm sahəsində ən yüksək nailiyyətlərə nail olmaqla yanaşı, seçilən nəfəsiniz və poetik üslubunuzla ədəbiyyat aləminə qədəm qoymusunuz. Cərrah bıçağınız çoxsaylı insanların gözünə nur, işıq verdiyi kimi, qələminiz də poeziyasevərlərin qəlbini işıqlandırıb. Poeziya və mükəmməl tibb sənəti sizin həyatınızda qoşa qanada dönüb. Hər iki sahədə böyük uğurlara imza atmısınız. Bədii yaradıcılığınız həmişə ədəbi tənqidin müsbət dəyərləndirmələri ilə qarşılanıb. Əsərləriniz barədə ən tanınmış sənət adamları səmimi ürək sözlərini bildiriblər. Poeziya gecələrində, konfrans və simpoziyalarda Azərbaycan ədəbiyyatını və elmini layiqincə təmsil etmisiniz. Söz sənətimizin keşiyində dayanmısınız.

Siz dünyanın bir çox ölkələrində - Almaniya, İngiltərə, Hollandiya, Rusiya, Kanada, İsveçrə, İspaniya, Fransa, İran, Türkiyə və ABŞ-da işgüzar səfərlərdə və elmi konqreslərdə iştirakçı, məruzəçi olmuş, mühazirələr oxumusunuz. Dünyanın çoxsaylı ölkələrinə səfəriniz zamanı, Azərbaycan ədəbiyyatının xoşməramlı missiyasını, səmimiyyətini, bəşəri duyğulara hesablanan dəyərlərini də özünüzlə götürmüsünüz. Eyni zamanda həyatında göz problemi yaşayan çoxsaylı qələm dostlarınızın təmənnasız ərk yeri olmusunuz.

Hörmətli Paşa Qəlbinur!

**Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.**

**Azərbaycan Yazıçılar Birliyi**